# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ
# Q Ə R A R I

**Bakı şəhəri** **№ 263/5** **26 may 2015-ci il**

**«Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2014-cü ilin yekunu üzrə təqdim edilmiş hesabatlarının təhlili və tövsiyyələrin hazırlanması» barədə**

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 1.7-ci «Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2014-cü ilin yekunu üzrə təqdim edilmiş hesabatlarının təhlili və tövsiyələrin hazırlanması» barədə qərarına uyğun olaraq, Analitik informasiya və təhlil şöbəsi tərəfindən hazırlanmış təhlil materialını müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Analitik informasiya və təhlil şöbəsi (R.Cəfərli) tərəfindən hazırlanmış «Sərbəst auditorlar və auditor təşkilatlarının 2014-cü ilin yekunu üzrə təqdim edilmiş hesabatlarının təhlili» barədə məruzə nəzərə alınsın (əlavə olunur);
2. Audit sistemində informasiya və təhlil işlərinin təkmilləşdirilməsi məqsədilə auditor fəaliyyətinin əsas meyar göstəriciləri olan illik dövriyyənin həcmi, işçilərin sayı ilə bağlı auditin əhatə dairəsinin dəqiqləşdirilməsi üzrə hüquqi mexanizmin müəyyən edilməsi, müstəqil auditorun hesabatının təsərrüfat subyektinin maliyyə hesabatlarının tərkib hissəsi kimi tanınması istiqamətində tədbirlər həyata keçirilsin;
3. Könüllü və əlaqədar xidmətlərin genişləndirilməsi üzrə tədbirlər sisteminin reallaşdırılması, səmərəlilik, uyğunluq və digər auditlərin tətbiqinin genişləndirilməsi istiqamətində müvafiq işlər həyata keçirilsin;
4. Qanunvericiliklə müəyyən edilmiş hallarda məcburi audit subyektləri tərəfindən maliyyə hesabatlarının müstəqil auditor hesabatı ilə birlikdə dərc etdirilməsi istiqamətində tədbirlər həyata keçirilsin;
5. Vahid məlumat reyestrindən istifadə etməklə auditdən yayınan məcburi audit subyektləri barəsində ətraflı informasiyanın əldə olunması, həmin subyektlərə Palata və onun tərəfdaşları (Azərbaycan Respublikası Vergilər Nazirliyi, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi) tərəfindən müvafiq bildirişlərin göstərilməsinin təşkili;
6. Dövlətin, təsərrüfat subyektlərinin və auditorların mənafelərini müdafiə etmək, cəmiyyətdə maliyyə şəffaflığının artırılmasında auditin rolunu yüksəltmək, məcburi auditdən keçməli olan təsərrüfat subyektlərini auditə cəlb etmək məqsədilə, auditin mövcud problemləri və inkişaf istiqamətləri mövzularında mətbuatda mütəmadi olaraq materiallar dərc etdirilməsi, habelə Palatanın rəsmi internet səhifəsindən istifadə etməklə maarifləndirmə, məlumatlandırma və interaktiv sorğuların aparılması işləri davam etdirilsin;
7. Bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**